

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Nəxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 82 (21.234)

29 aprel 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Aprelin 28-də Azərbaycanın paytaxtında III Qlobal Bakı Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumun rəsmi açılış mərasimində iştirak edib.

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin budəfəki forumun mövzusunun yeni dünya düzənində etimadın qurulmasına həsr olunduğunu bildirdi, tədbirə onlarla ölkədən yüksək səviyyəli nümayəndə heyətlərinin gəldiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi III Qlobal Bakı Forumunda iştirak etmək üçün ölkəmizə səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi III Qlobal Bakı Forumunda iştirak etmək üçün ölkəmizə səfərə gələn Makedoniya Respublikasının Prezidenti George İvanov ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Avropa Şurası Nazirlər Komitəsinin sədri, Belçika Krallığı Baş nazirinin müavini, Xarici İşlər, Xarici Ticarət və İnkişafa Yardım naziri Didier Reindersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Naxçıvanda “Bakı-2015” ilk Avropa Oyunlarının Alov festivalı keçirilmişdir

Aprelin 27-də “Bakı-2015” ilk Avropa Oyunlarının məşəli Naxçıvan şəhərinə gətirilmiş və Alov festivalı keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivala baxmışdır.





Əvvəlcə məşəl Naxçıvana səyahət proqramı çərçivəsində idmançıların müşayiəti ilə Duzdağ Fizioterapiya Mərkəzinə, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə və “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə gətirilmişdir.





Sonra məşəl estafetinə Naxçıvan şəhərinin Əziz Əliyev küçəsindəki Koroğlu abidəsinin yanından start verilmişdir. Naxçıvanlı idmançılar məşəli “Bakı-2015” Birinci Avropa Oyunlarının ilk məşəlçisi, olimpiya çempionu Rəfiqə Şabanovadan təhvil almışlar. Estafeti 11 idmançı növbə ilə davam etdirərək Əziz Əliyev və Cəlil Məmmədquluzadə küçələrindən keçdikdən sonra Heydər Əliyev prospektindəki mərkəzi meydana çatdırmışlar. Minlərlə sakin məşəl estafetini alqışlarla müşayiət etmiş, bu möhtəbər tədbirin həyəcan və sevincini yaşamışdır. Voleybol üzrə kişilərdən ibarət Azərbaycan milli komandasının üzvü Polad Əliyev məşəli alqış sədaları altında mərkəzi meydandakı səhnəyə qaldırmış və Alov festivalı başlanmışdır.

Əvvəlcə Atəşgah məbədində Birinci Avropa Oyunları məşəlinin alovlandırılması mərasimindən bəhs edən videoçarx nümayiş etdirilmişdir.

Tədbirin aparıcısı qeyd etmişdir ki, bu il iyunun 12-dən 28-dək paytaxt Bakı şəhərində ilk Avropa Oyunları keçiriləcəkdir. Bununla əlaqədar olaraq ölkəmizdə Avropa oyunlarının əsas simvolu və carçısı olan məşəl estafeti keçirilir. Aprelin 26-da Bakı şəhərindəki Atəşgah məbədində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən alovlandırılan məşəl 47 gün ərzində 5500 kilometr məsafə qət edərək Azərbaycanın 60 rayon və şəhərində oyunların ruh və həyəcanını yaşadacaq, ölkəmizin təbii gözəlliyini və mədəniyyətini dünyaya nümayiş etdirəcəkdir.

Festivalda Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək demişdir ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi idman siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycan dünyanın ən nüfuzlu idman yarışlarına ev sahibliyi edir, idmançılarımızın olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında qazandıqları medalların sayı ilbəil artır. Naxçıvan Muxtar Respublikasında da idman qayğı ilə əhatə olunub. Olimpiya-idman kompleksləri, üzgüçülük, şahmat, stend və sportinq atıcılıq mərkəzləri, stadionlar, şahmat və uşaq-gənclər idman məktəbləri yaradılıb. Birinci Avropa Oyunları Azərbaycanda idmanın inkişafına, ölkəmizin dünyada tanıdılmasına, milli mədəniyyətimizin nümayişinə şərait yaradacaqdır. Oyunların Azərbaycanda keçirilməsinin Naxçıvanda da sevinclə qarşılandığını bildirən Azad Cabbarov festivalın təşkilatçılarına minnətdarlıq etmiş, idmançılara Avropa Oyunlarında uğurlar arzulamışdır.

Sonra “Bakı-2015” ilk Avropa Oyunlarının rəmzi çırağı Naxçıvan şəhərinə hədiyyə edilmişdir. Bu çıraq iyunun 28-dək “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində yanılı saxlanılacaqdır.

Naxçıvan Dövlət Filarmoniyasının və Şərur Xalq Yallı Ansamblının çıxışları alqışlarla qarşılanmış, festival möhtəşəm “Alov şousu” ilə yekunlaşmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ulu öndər Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu

*Naxçıvan Dövlət Universitetində ali məktəbin nəzdində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda 192-ci məşğələsi keçirilib.*

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən növbəti məşğələni giriş sözü ilə ali məktəbin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq qeyri-adi fitri istedada, dərin zəkaya və analitik təfəkkürə malik ulu öndər Heydər Əliyevin çətin və məsuliyyətli, şərəfli ömür yolundan, siyasi fəaliyyətindən danışıb. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkənin müasir inkişafına, iqtisadi, siyasi və hərbi qüdrətinə, beynəlxalq nüfuz sahibi olmasına məhz Heydər Əliyev ideyalarını əzmlə davam etdirməklə nail olub. Ümummilli liderin həyat və fəaliyyətinin, zəngin siyasi irsinin öyrənilməsi və təbliği tələbə gəncliyin də başlıca məramı olmalıdır.



Universitetin tərbiyə işləri üzrə prorektoru, fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev mövzu ilə bağlı məruzə edərək bildirib ki, XX əsrin ikinci yarısından etibarən dahi rəhbər Heydər Əliyev iki siyasi sistemdə Azərbaycana rəhbərlik edib, nəinki müstəqillik illərində, totalitar sovet rejimi dövründə belə, Azərbaycan Respublikasının yüksəlişinə, mənəvi-mədəni inkişafına nail olub. Xalqımızın böyük oğlu Heydər Əliyev öz ömrünü, bütün siyasi və dövlətçilik fəaliyyətini çağdaş Azərbaycanın, milli dövlətçiliyin inkişafı və möhkəmlənməsinə sərf edib.

Bildirilib ki, ulu öndərimiz Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə burada müstəqil dövlət quruculuğuna başlayıb, Naxçıvanın ərazi bütövlüyünü və muxtariyyət statusunu qoruyub saxlayıb. Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın sosial-iqtisadi tərəqqisində, ölkədə ictimai sabitliyin yaradılmasında, milli ideologiyanın formalaşmasında, dövlətimizin uzaqgörən və balanslaşdırılmış xarici siyasətinin müəyyənləşdirilməsində misilsiz xidmətlər göstərib. Ümummilli lider görkəmli dövlət və siyasi xadim kimi müasir Azərbaycan tarixinin parlaq səhifələrini yaradıb. Heydər Əliyev yolu ilə gedən Azərbaycan öz müstəqilliyini daha da möhkəmləndirib, ölkəmiz sürətli inkişaf yoluna qədəm qoyub, dünyada söz sahibinə çevrilib.

**Mehriban SULTAN**

## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü münasibətilə tədbirlər keçirilib

***Aprelin 28-də Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında görkəmli oftalmoloq-alimin anadan olmasının 92-ci ildönümü münasibətilə tədbir keçirilib.***



Tədbir iştirakçıları əvvəlcə akademik Zərifə xanım Əliyevanın poliklinikanın foyesindəki büstü önünə gül dəstələri qoyub, onun xatirəsinə həsr olunmuş guşədə alimin həyat və fəaliyyətini əks etdirən foto və kitablarla, həmçinin tanınmış insanların görkəmli oftalmoloq-alim haqqında fikirləri ilə tanış olublar.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Sona Məmmədova açıb.

Naxçıvan Şəhər Poliklinikasının baş həkimi Xuraman Hacızadə qeyd edib ki, Naxçıvan Şəhər Poliklinikası 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Ümummilli lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə poliklinikada olub. 2012-ci ilin mayında ölkə Prezidenti cənab İlham Əliyev Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının yeni binasının açılışında iştirak edib. Zərifə xanımın adını daşıyan səhiyyə müəssisəsində işləmək hər bir tibb işçisi üçün böyük məsuliyyətdir. Milli oftalmologiyanın banisi akademik Zərifə xanım Əliyevanın keçdiyi həyat yolu, misilsiz xidmətləri, apardığı tədqiqatlar əsl təcrübə məktəbidir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasının baş həkimi Səidə Hüseynova "Akademik Zərifə xanım Əliyevanın həyatı və həkimlik fəaliyyəti", Naxçıvan Şəhər Poliklinikası baş həkiminin müavini Tamella Bayramova "Akademik Zərifə xanım Əliyevanın səhiyyənin təşkili və inkişafında rolu", Şərur Rayon Mərkəzi Xəstəxanasının həkim-oftalmoloqu Araz İbrahimov "Akademik Zərifə xanım Əliyevanın elmi fəaliyyəti", Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasının həkim-oftalmoloqu Samiq Sadıqov "Akademik Zərifə xanım Əliyeva Azərbaycanın parlaq, ziyalı qadınlarındandır" mövzularında çıxışlar ediblər.

Çıxışlarda bildirilib ki, ömrünü tibb elminə həsr edən görkəmli alim oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması istiqamətində səmərəli elmi araşdırmalar aparıb. Zərifə xanımın vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində daha ətraflı şəkildə əks olunub. Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Vurğulanıb ki, akademik Zərifə Əliyevanın çoxşaxəli elmi fəaliyyəti hələ sağlığında öz qiymətini alıb. Zərifə xanım Əliyeva bir çox sanballı tədqiqatların, o cümlədən 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 160-a yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Onun zəngin pedaqoji və elmi təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında öz əksini tapıb. Bu kitab həm oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün əsas elmi mənbədir.

Zərifə xanım təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməyib, yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib. Onun işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Sonda Naxçıvan Qızlar Liseyinin şagirdləri görkəmli alimə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Dünən akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü münasibətilə görkəmli alimin adını daşıyan Kəngərli rayonunun Şahtaxtı kənd tam orta məktəbində də tədbir keçirilib.***

Əvvəlcə akademik Zərifə xanım Əliyevanın məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyulub, görkəmli alimin həyat və fəaliyyətini əks etdirən eksponatların nümayiş olunduğu Xatirə muzeyinə baxış olub.



Tədbiri Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev açaraq bildirib ki, görkəmli alim Zərifə Əliyevanın mənalı ömür yolu, mənəvi ucalığı özündə əks etdirən zəngin irsi hər birimiz üçün dəyərli və əhəmiyyətlidir. Məhz Zərifə xanımın böyük zəhməti nəticəsində Azərbaycanda tibb elmində, xüsusilə oftalmologiya sahəsində mühüm elmi nailiyyətlər əldə olunub.

Şahtaxtı kənd tam orta məktəbinin direktoru Zal Rüstəmov oftalmoloq-alimin həyat və fəaliyyətindən söhbət açaraq bildirib ki, Zərifə xanım Əliyeva 92 il bundan əvvəl Şahtaxtı kəndində görkəmli dövlət xadimi, Azərbaycan səhiyyəsinin qurucusu və təşkilatçısı olan Əziz Əliyevin ailəsində anadan olub. Həkimlik peşəsinə hələ uşaq yaşlarından böyük maraq göstərən Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub. 1947-ci ildə ali təhsilini müvəffəqiyyətlə bitirərək Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçib. Tibb sahəsində elmi tədqiqatlara hədsiz marağı Onu Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarıb. 1950-1953-cü illərdə Zərifə xanım Əliyeva aspiranturada təhsil alıb və elmi tədqiqatla məşğul olub. Taleyini tibb elminə həsr edən bu böyük alim oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparıb. Onun Azərbaycanda traxomanın kökünün kəsilməsində, bir sıra göz xəstəliklərinin müalicəsində, eyni zamanda xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması istiqamətindəki elmi araşdırmaları oftalmologiya sahəsində mühüm elmi nəticələrin əldə olunmasına şərait yaradıb.

Tədbirdə məktəbin müəllimlərindən Pərnaz Bayramova və Arifə Əhmədova akademik Zərifə xanım Əliyevanın elmi fəaliyyətindən bəhs edərək vurğulayıblar ki, görkəmli alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elmdə yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoyub. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları Zərifə xanıma böyük şöhrət gətirib və dünya tibb elmi ədəbiyyatında nadir tədqiqatlar sırasında yer tutur. Buna görə də oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi böyük alimin adı ilə bağlıdır.

Sonra məktəbin şagirdləri Zərifə xanım Əliyevaya həsr olunmuş şeirləri bədii qiraət ediblər. Sonda tədbir iştirakçıları oftalmoloq-alimin həyat və fəaliyyətinə həsr olunmuş filmə baxıblar.

**Səbuhi HƏSƏNOV**

## YAP Naxçıvan Şəhər Təşkilatının və təşkilatın Qadınlar Şurasının üzvləri Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində olublar

***Aprelin 28-də Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Şəhər Təşkilatının və təşkilatın Qadınlar Şurasının üzvləri Naxçıvan şəhərində yerləşən Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində olublar.***

YAP Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Yazgül Rzayeva, İlhamə Mustafayeva, Aidə Allahverdiyeva, Ülviyyə Həmzəyeva və digərləri burada dövlətin qayğı və himayəsində olan məhdud fiziki imkanlı uşaqlarla görüşərək onlara hədiyyələr və oyuncaqlar təqdim ediblər.

Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində olan uşaqlar tədbirə dəvət olunmuş həkimlər briqadası tərəfindən növbəti dəfə müayinədən keçirilib, mütəxəssislər tərəfindən valideynlərə müvafiq məsləhətlər və tövsiyələr verilib.

YAP Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli bildirib ki, bu gün muxtar respublikada xüsusi qayğıya ehtiyacı olan uşaqlara həssaslıqla yanaşılır, onların sosial müdafiəsi, təhsili, intellektual səviyyələrinin yüksəldilməsi, cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının mənalı təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" da bu məsələyə mühüm əhəmiyyətə malikdir. Proqramda inklüziv və məsafədən təhsil üçün əsaslı zəminin yaradılması, sağlamlıq imkanları məhdud uşaqların təhsillərinin səmərə və keyfiyyətinin yüksəldilməsi və bu sahədə müvafiq pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi məsələləri öz əksini tapıb. Dövlət proqramı ötən dövrdə uğurla icra olunub, muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlbi, habelə onların cəmiyyətə inteqrasiyası istiqamətində bir sıra işlər görülüb.

Elman Cəfərli deyib ki, bu gün anadan olmasının 92-ci ildönümünü qeyd etdiyimiz görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyeva həm də xeyirxahlıq və humanizm prinsiplərinin simvolu kimi yaddaşlarımızda yaşayır.

YAP Naxçıvan Şəhər Təşkilatının və Qadınlar Şurasının üzvlərinin Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə gələrək buradakı sağlamlıq imkanları məhdud uşaqlarla görüşməsi Zərifə xanımın xatirəsinə ehtiramın və onun xeyirxah əməllərinin bu gün də yaşadılmasının göstəricisidir.

*28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında tədbir keçirilib.*

## Ümumdünya Əməyin Mühafizəsi Günü qeyd edilib

Tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açaraq Ümumdünya Əməyin Mühafizəsi Gününün təsis olunması tarixindən və bu sahədə həmkarlar ittifaqlarının üzərinə düşən vəzifələrdən danışıb. Bildirilib ki, 2001-ci ildə Beynəlxalq Əmək Təşkilatının qərarı ilə aprelin 28-i "Ümumdünya Əməyin Mühafizəsi Günü" kimi təsis olunub. Dünyada hər il istehsalatda baş verən bədbəxt hadisələr nəticəsində minlərlə insanın həyat və sağlamlıqlarını itirməsi əməyin mühafizəsi işini günün aktual məsələlərindən birinə çevirib. Bu günün dünyada hər il qeyd olunmasında da məqsəd ictimaiyyətin diqqətini iş yerlərində əməyin mühafizəsinə, işçilərin sağlam və təhlükəsiz əmək şəraiti ilə təmin olunmalarına yönəltməkdir.



Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması, eləcə də tikinti sektorunda işlərin keyfiyyətlə aparılması, əməyin təşkili və təhlükəsizlik qaydalarına əməl olunması ilə bağlı keçirilən müşavirələr mühüm əhəmiyyətə malikdir. Həmin müşavirələrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aidiyyəti orqanlara verdiyi konkret tapşırıqların icrası istiqamətində ötən müddət ərzində sənaye, energetika, nəqliyyat, rabitə, tikinti sektorları üzrə fəaliyyət göstərən müəssisələrdə müəyyən olunmuş təhlükəsizlik tədbirlərinin görülməsinə, işçilərin xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təminatına, o cümlədən əməyin mühafizəsi qaydalarına əməl edilməsinə nəzarət gücləndirilib. Bu gün muxtar respublikamızda əməyin mühafizəsi istiqamətində aparılan ardıcıl və məqsədyönlü tədbirlər, təhlükəsiz əmək şəraitinin təmin olunması prosesində dövlət qurumlarının, işçilərin və işəgötürənlərin iştirak etməsi təqdirolunası amillərdir.

Tədbirdə əməyin mühafizəsi sahəsində qarşıda duran vəzifələrin icrası istiqamətində görülən işlər barədə ətraflı söhbət açılıb.

**Xəbərlər şöbəsi**

# Naxçıvandakı Duzdağ dünyada bənzəri olmayan Azərbaycan möcüzəsidir



Bu gün sizə qədim və tarixi bir diyarda – Azərbaycanın Naxçıvan Muxtar Respublikasında yerləşən müalicə və turizm mərkəzi Duzdağ haqqında bəzi məlumatları təqdim edirik. Burada tənəffüs yolları xəstə olan insanlar uğurla müalicə olunurlar.

Dünyada allergiya xəstəliklərinin sayının artması XX əsrin ortalarından həkimləri ciddi şəkildə narahat etməyə başlayır. Uzun axtarışlardan sonra aşkar edilir ki, belə xəstəliklər duz şaxtalarında müalicə oluna bilər. İlk dəfə 1871-ci ildə İtaliyanın Florensiya şəhəri yaxınlığındakı Toskaniya əyalətinin Monsammam yaşayış məskənində şaxta şəraitində – stalaktitli və stalaqmitli şaxtalarda revmatik poliartrit xəstələrinin müalicəsi aparıldı. Bu qəbildən olan şaxtalar Almaniya, Macarıstan, Belarus və Ukrayna kimi ölkələrdə fəaliyyət göstərir. Belə şaxtalar karst mağaralarına çevrilir, onların mikromühiti isə kalsium ionları ilə zəngin olur.

Elə şaxtalar da var ki, orada natrium və xlorun ionları olan mikromühit üstünlük təşkil edir. Belə şaxtalar 1968-ci ildən Polşanın Krakov şəhərində, Ukraynanın Ujqorod şəhərinin Solotvino qəsəbəsində, 1979-cu ildən isə Azərbaycana məxsus Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri yaxınlığındadır.

Fizioterapiya Mərkəzi Naxçıvanın "Duzdağ" mehmanxanasının 2 kilometrliyində yerləşir. Müalicəxananın özü yerüstü və yeraltı hissələrdən ibarətdir. Birinci hissə Duzdağda və "Duzdağ" otelində, ikinci isə dağın altında yerləşir. Bu, duz mədənlərinin 2-ci əsas dağ sexinə girişdən 300 metrlik məsafədə yerləşən dərinlikdədir. "Duzdağ" otelində yerləşən müalicəxana 5 qalereya-lağımdan ibarətdir. Burada 128 çarpayısı olan 47 palata, kafeteri, televiziya salonu, kitabxana vardır.



"Duzdağ" otelinin müalicə mərkəzində həkimlər sizin daima xidmətinizdədir, gecə-gündüz mühafizə və qaldığınız nömrənin səliqə-sahmanda saxlanılması təmin edilir. Xəstələrin müalicəsi tibbi heyətin nəzarəti altında həyata keçirilir. Gündüz vaxtlarında komfortlu nömrələrdə istirahət edə bilərsiniz. Akvapark, açıq və örtülü hovuzlar, basketbol, futbol meydançaları, tennis kortları və idman-sağlamlıq mərkəzlərində stress və yorğunluqdan yaxa qurtara bilərsiniz.

Sağlamlıq ocağının bölmələri dəniz səviyyəsindən 1173 metr yüksəklikdə, Naxçıvan şəhərindən 12,2 km məsafədə yerləşən şaxtalarda, duz mədənlərinin ikinci əsas dağ sexində, girişdən 300 metrlik məsafədə, 110 metr dərinlikdə, 9 işlənilmiş əsas qatlarda fəaliyyət göstərir. Naxçıvan şəhərindən Fizioterapiya Mərkəzinə qədər məsafə 9,8 km, mərkəzdən şaxtaya isə 2,4 kilometrdir. Şaxtaların yeraltı şöbələrinin mikromühiti aşağıdakı kimidir:

*1. Dəniz səviyyəsindən hündürlük – 1173 m*
*2. Temperatur – 18-20 dərəcə*
*3. Atmosfer təzyiqi – 740 mm c.s.*
*4. Nisbi rütubət – 24-50%*
*5. Hava hərəkətinin sürəti – 0,1 m/s*
*6. Yüksək dispersiyalı ionlar Na+, Cl-*
*- xəstələr olmadıqda – 17,5 mq/$m^3$*
*- xəstələr olduqda – 12,5 mq/$m^3$*
*7. Oksigen – 20 %*
*8. Səs-küyün səviyyəsi – 15-20 Db*
*9. Dəm, metan, azot qazlarının səviyyəsi – mövcud deyil*
*10. Gemolitik növlü mikrokoklar, kif göbələkləri yoxdur*
*11. Bakteriyaların miqdarı – 650-850 $m^3$ (Yerüstü səthin havasında mikrobların miqdarı 8-10 dəfə azdır).*



**Duzla örtülü çaylar dünyanın sirri açılmamış möcüzələrindəndir**

Azərbaycanın gözəl tarixi diyarı olan Naxçıvanın rəmzlərindən biri də 90 milyon ton təbii ehtiyata malik Duzdağdır.

Azərbaycanın bu dağı təkcə şəffaf və təmiz duzu ilə deyil, həm də müalicəvi xüsusiyyəti ilə məşhurdur. Məlumatlara görə, hələ 6 min il bundan əvvəl – Nuh-Nəbi əyyamından da burada duz çıxararmışlar. Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə uzanıb gedən "Duz yolu" dünyada məşhur "İpək Yolu"na qovuşurdu. Həmin ölkələrə duz buradan daşınırdı.

Qədim Naxçıvan diyarının ən möcüzəli yeri olan Duzdağın hər qayası, hər daşı, hər qarışında sirli və ecazkar tarixin izləri gizlənmişdir. Bu barədə çoxlu elmi və publisistik əsərlər yazılıb, lakin bu yerin sirri hələ tam açılmayıbdır. Buna görə də biz istədik ki, füsunkar Duzdağ möcüzəsini öz gözlərimizlə görək.

**Duzdağ Fizioterapiya Mərkəzi haqqında**

Dünyanın bir çox ölkələri müalicə üçün "Duzdağ" sanatoriyasına müraciət edirlər. Burada bronxial-astmadan müalicə olunurlar. Bu diaqnozlu xəstələr üçün saat $17^{00}$-dən sonra Naxçıvan Muxtar Respublika Xəstəxanasından Duzdağ Fizioterapiya Mərkəzinə avtobus yola düşür. Saat $18^{00}$-də xəstələr yeraltı sanatoriyanın otaqlarına daxil olurlar. Onlar gecəni divarları şəffaf duzla örtülü otaqlarda keçirirlər. Səhər bu yerləri yaxşı əhvalla da tərk edirlər. Qeyd etmək lazımdır ki, bu sanatoriyaya müraciət edən xəstələrin sayı ilbəil artır.



**"Duzdağ" oteli**

Gözə ilk dəyən "Duzdağ" oteli olur. Dağlar qoynunda tikilmiş beşulduzlu bu otel müasirliyi ilə seçilir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən açılmış bu oteldə həm xəstələr qalır, həm də turistlər istirahət edirlər.

Otel zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarətdir və o, qonaqların istirahəti üçün hər cür şəraitə malikdir.



**Yeraltı Duzdağ Fizioterapiya Mərkəzi**

Bu dağlıqda, təqribən, 2-3 kilometrlik məsafəni qət edən adam duzun iyini hiss edir.

50 çarpayısı olan yeraltı Duzdağ Fizioterapiya Mərkəzi 1979-cu ildən xəstəxana kimi fəaliyyət göstərməyə başlayıb. 1980-ci ildə çarpayıların sayı 100-dək artırılıb. Yeraltı müalicə mərkəzi girişdən 300 metrlik məsafədə 110 metr dərinlikdə yerləşir.

Burada qadın və kişi palataları, bir uşaq otağı və bir istirahət foyesi fəaliyyət göstərir.

Yeraltı duz layının qalınlığı 8,2 metrdir, havanın temperaturu 18-20 dərəcədir, havanın rütubəti isə 24-50 faiz arasında dəyişilir.

Dəniz səviyyəsindən 1173 metr yüksəklikdə yerləşən yeraltı Duzdağ Fizioterapiya Mərkəzində duz təbəqələri arasındakı havadakı oksigen 20 faiz təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkən insanlar üçün təbiətin bəxş etdiyi ən yaxşı məlhəmdir. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin minerallar ağciyərləri müalicə edən hava yaradır, o da bronxial-astma və xroniki xəstəliklərin müalicəsində mühüm rol oynayır.

Qeyd edək ki, burada hər arzu edən xəstə müalicə ala bilər. Amma müalicə kursları müxtəlifdir. Belə ki, uşaqlar 12-15, yaşlılar 14-18 gün yerin altında qalıb müalicə olunurlar. Burada ilin bütün fəsillərində müalicə qəbul etmək olar.



**Duz mədənləri**

Naxçıvan duzu dəniz duzundan fərqlənir. Əsl Naxçıvan duzu ekoloji cəhətdən təmizdir, tərkibində ağır minerallar yoxdur və bir çox xəstəliklərin dərmanıdır. Naxçıvan duzunun tərkibindəki maqnezium ürək-damar xəstəlikləri olan insanların ondan istifadə etməsinə imkan verir.

Duzdağ yatağını istismar etməyə insanlar hələ eradan əvvəl üçüncü minilliyə qədər başlamışdılar. Bu diyarda indiyə kimi qədim dövr şaxtaları qalmaqdadır. Orada duzu əllə çıxarır və atlarla daşıyırdılar.

Duzdağda duzun sənaye üsulu ilə əldə edilməsinə 1927-ci ildən başlanılmışdır. İndi bu ərazidə duz ehtiyatları 90 milyon ton təşkil edir. Burada illik istehsal 6-8 min tondur.

**Duzun çıxarılması**

Yataqlardan duz qazma üsulu ilə çıxarılır. Əvvəlcə yeraltı tunel qazılır, sonra dinamitlə partladılır. Partlayışdan əmələ gələn duz parçaları kiçik vaqonlara yığılaraq yer səthinə çıxarılır. Burada o, növlərə ayrılır və işlənilir.

Qeyd edək ki, istifadə olunan tunelin uzunluğu 1500 metrdir. İşlənilmiş duz kristal və üyüdülmüş formada satılır. Sexlərdə üyüdülmüş bir ton duza 66 qram yod əlavə edilir. Bu, qalxanabənzər vəzin xəstələnməsinin qarşısını almaq üçün edilir.

**Duzdağın görünməyən tərəfləri**

Duzdağın yamacları ilə dolaşarkən dağın füsunkar təbii gözəlliyi insanı valeh edir. Enişli-yoxuşlu yollarla aşağı düşərkən fikirləşirsən ki, görəsən, bizi daha nələr gözləyir?

Günəş şüaları altında torpağın, duz kristallarının rənglərinin sayrışması gözlərimizi qamaşdırır və bizi daha da həyəcanlandırır. Günəş şüaları altında rənglərin dəyişməsindən əmələ gələn naxışlar öz cəlbediciliyi ilə böyük bir xalını xatırladır. Boz, qəhvəyi, qırmızı, qumlu və gilli libası ilə yer öz bətnində minlərlə sirlər və xəzinələr gizlətməkdədir. Addımladıqca ayaq altında xırçıldayan qum, duzdan çatlamış yer mənə qış günlərini, ayaq altda qalmış qarı xatırladır. Piramidaya və kurqana bənzəyən bu minillik tarixə malik dağ öz şöləsi ilə neçə-neçə görünməmiş, haqqında eşidilməmiş sirləri işıqlandıracaqdır. Bizim də "yeməyimizə duz səpəcək" – yazılı səhifələrimizə çevriləcəkdir. Rastlaşdığımız onlarla daş bizə bu dağın qədim mədəni abidələrindən xəbərlər verəcəkdir.

**Dünyanın qəribə möcüzələri haqqında**

"Bunun özü elə dünyanın qəribə möcüzəsidir". Soyuq qış günlərində biz buz bağlamış çoxlu çaylar görmüşük. Lakin heç zaman "duz bağlamış", yəni duzla örtülmüş çaylar barəsində eşitməmişik. Belə fikirdəyik ki, heç siz də bu barədə bir şey eşitməmisiniz. Elə isə Naxçıvana gəlin və onları öz gözlərinizlə görün. Görün ki, duzla örtülmüş, duza bülənmiş bu çaylar və şəlalələr qarşısında insanı necə heyrət bürüyür. İnsan bu yerlərin əsrarəngiz gözəlliklərindən, bu vaxtacan görmədiyi və haqqında eşitmədiyi möcüzələrindən ayrılmaq istəmir.

Qeyd edək ki, bu ərazidə duzla örtülü 10-a qədər çay vardır. Onların hamısı öz başlanğıcını Duzdağdan götürür.

Azərbaycan sivilizasiyasının tarixi diyarı və beşiyi olan Naxçıvan "Badamlı", "Sirab", "Vaxır" kimi müalicəvi və mineral suları ilə də tanınır. Növbəti məqalədə bu mövzunu işıqlandıracaq və sizə ətraflı məlumat verəcəyik.

***Özbəkistanın "Podrobno.uz" informasiya portalı***
***21 aprel 2015-ci il***

## Tələbələr Ədəbiyyat Muzeyində



Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Musiqi Kollecinin bir qrup tələbəsi dünən Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində olub.

Məlumat verilib ki, muzeyin ekspozisiyasında nümayiş etdirilən müxtəlif qiymətli əlyazmalar, tətbiqi və təsviri sənət nümunələri, kitab, qəzet və jurnallar, ədəbi mühitin tanınmış nümayəndələrinə aid xatirə əşyaları nümayiş etdirilir. Burada yaradılmış zəngin guşələr vasitəsilə tamaşaçılar Azərbaycan ədəbiyyatının klassik və müasir nümayəndələrinin, eləcə də Naxçıvan ədəbi mühitinin tanınmış simalarının həyat və yaradıcılıqları ilə tanış ola və onlar haqqında dolğun məlumatlar ala bilərlər. Buna görə də muzey görkəmli ədəbi simaların həyat və yaradıcılıqlarının öyrənilməsində, eyni zamanda onların əsərlərinin elmi cəhətdən araşdırılmasında mühüm rol oynayır.

## “Əsgər atası” filmi nümayiş etdirilib



Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə 1941-1945-ci illər müharibəsində qazanılan qələbənin 70 illik yubileyi münasibətilə film nümayiş olunub. Qələbənin 70 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında qeyd olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş tədbirlər planının müvafiq bəndinə əsasən, gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmaları, dünyagörüşlərinin artırılması məqsədilə vətənpərvərlik mövzusunda nümayiş olunan “Əsgər atası” filmi tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Filmi 450-yə yaxın gənc tamaşaçı izləyib.

✍ Ceyhun MƏMMƏDOV

## Danyeri kəndində profilaktik tibbi müayinələr aparılıb

*Muxtar respublika əhalisinin sağlamlığının mühafizəsi, dispanserizasiya işinin yaxşılaşdırılması məqsədilə həkim briqadaları şəhər, qəsəbə və kəndlərdə, ümumtəhsil məktəblərində kütləvi profilaktik müayinələri davam etdirirlər.*

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası ənənəni davam etdirərək Şərur rayonunun Danyeri kəndindəki yeni quruculuq ünvanlarından olan ikimərtəbəli həkim ambulatoriyasında əhalini profilaktik müayinələrdən keçirib. Yüksəkixtisaslı həkimlərdən – terapevt, pediatr, cərrahlardan ibarət briqada ultrasəs və müayinə aparatları ilə təchiz edilib. Kənd ambulatoriyasının tibb işçilərinin də fəal iştirakı ilə həkim briqadası tərəfindən gün ərzində 18 terapevtik, 24 pediatrik, 22 kardioloji, 14 cərrahi müayinə aparılıb. Aşkar olunan ilkin xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülüb, onlara ambulator kartlar açılıb. İki nəfərdə hipertoniya, 1 nəfərdə stenokardiya, 1 nəfərdə xroniki beyin qan dövranı çatışmazlığı, 2 uşaqda anemiya, 1 uşaqda revmatizm müşahidə edildiyindən onlar dispanser qeydiyyatına götürülüb, kənd üzrə dispanser qeydiyyatında duran xroniki xəstələrin sayı dəqiqləşdirilib. Əhali arasında ürək-damar, yoluxucu, dəri-zöhrəvi, şəkərli diabet, onkoloji, vərəm, göz, ginekoloji xəstəliklər, uşaqların düzgün qidalanması, ana südünün əhəmiyyəti, qohumluq nikahının və zərərli vərdişlərin hamiləliyə ziyanı barədə səhiyyə maarifi işləri aparılıb, xəstəliklərin profilaktikası ilə bağlı tibbi məsləhətlər verilib.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

*Təhsili inkişaf etmiş cəmiyyət bütün sahələrdə yüksək nəticə qazana bilər. Muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərindən təhsil sahəsinə də xeyli pay düşüb. Yenidən qurulan və ya inşa edilən təhsil obyektləri inkişaf etmiş ölkələrin qabaqcıl təhsil müəssisələri ilə müqayisə edilə biləcək səviyyədədir.*

## Naxçıvan yetişdirdiyi gənc kadrlarla dünyaya öz töhfələrini verməkdədir

Əlbəttə, bütün bunlar savadlı, bacarıqlı, peşəkar gənclər yetişdirmək məqsədi daşıyır. Naxçıvanda fəaliyyət göstərən ali təhsil ocaqlarında yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikamızın abituriyentlərinin əksəriyyəti buradakı institut və universitetlərdə təhsil almağa üstünlük verir. Onu da qeyd edək ki, təhsil almaq üçün Naxçıvandakı ali məktəbləri seçən Azərbaycanın regionlarından və digər dövlətlərdən olan gənclərin də sayı az deyil.

“Naxçıvan” Universitetində də ölkəmizin digər regionlarından bu ali təhsil müəssisəsini seçən gənclər çoxdur. Universitetin tərbiyə işləri üzrə prorektoru Əli Yusifov belə tələbələrin sayının ilbəil artdığını, yeni ixtisasların tədrisinə başlanıldığını bildirdi. Həmin tələbələrlə görüşüb həmsöhbət olduq. Muxtar respublika ilə bağlı təəssüratlarını bizimlə bölüşən tələbələr təhsilin səviyyəsindən məmnunluqlarını ifadə etdilər.

Masallı rayonunun Ərkivan kəndindən Rifaq Əhədov 2011-ci ildə “Naxçıvan” Universitetinin “tarix” ixtisasına qəbul olunub. Həmin vaxta qədər Naxçıvan haqda yalnız internet vasitəsilə məlumat əldə edən Rifaq artıq muxtar respublikamız barədə ətraflı bilgiyə malikdir.

O, qısa müddət ərzində universitetin fəal tələbəsi kimi tanınıb. İxtisası ilə əlaqəli ziyarət etdiyi tarixi-memarlıq abidələrinin möhtəşəmliyindən, təhsilə göstərilən xüsusi diqqətdən ağızdolusu danışan bu gənc hətta burda qalıb yaşamağı da düşünür.

“Naxçıvan” Universitetində təhsil alan digər həmsöhbətimiz Balakən şəhərindən Zaira Zaranovadır. Universitetin “Azərbaycan dili və ədəbiyyat” ixtisasının birinci kursunda təhsil alan Zaira orta məktəbdə oxuyarkən muxtar respublika barədə heç bir məlumatının olmadığını bildirdi. Dedi ki, qəbul imtahanları ərəfəsində ali məktəblərin internet saytlarından məlumat əldə etdim. Naxçıvanda təhsil alan qohumlarımız bura barədə xoş sözlər dediklərindən muxtar respublikadakı ali məktəblərlə maraqlandım. Naxçıvanda təhsil alanlar həmişə deyirdilər ki, orada yüksək təhsil, ciddi nizam-intizam var. Odur ki, “Naxçıvan” Universitetində oxumağa qərar verdim. Naxçıvandakı tədris prosesini, istiqanlı, mehriban insanları gördükdən sonra buranı seçməkdə haqlı olduğumu gördüm. Muxtar respublikadakı sabitlikdən də söz açan Zaira təhlükəsiz həyat üçün ən ideal məkanın məhz Naxçıvan olduğunu vurğulayır. Burada kirayə tutduqları evdə qaldığını, qiymətlərin ucuz olmasının ailəsini maddi çətinliyə salmadığını deyir.

Naxçıvan Dövlət Universitetində isə Azərbaycanın başqa rayonları ilə yanaşı, 350 nəfər xarici vətəndaş ali təhsil alır. Universitetdə Türkiyə, İran, İraq, Pakistan, Cənubi Koreya, Nigeriya, Banqladeş, Gürcüstan, Polşa, Sloveniya, Almaniya, Rusiya və başqa ölkələrdən olan tələbələr müxtəlif ixtisaslar üzrə təhsillərini davam etdirirlər. Müxtəlif ixtisaslarda, müxtəlif kurslarda təhsil alan xarici tələbələrlə görüşmək, onlardan Naxçıvan haqqında təəssüratlarını eşitmək üçün üz tutdum Naxçıvan Dövlət Universitetinə.

İlk həmsöhbətim Cənubi Koreya vətəndaşı Li Jin Yonq oldu. Universitet müəllimləri onu Çinarə adı ilə çağırırlar. İki ölkə arasında məsafənin uzaqlığını nəzərə alsaq, hamımıza maraqlı gəlir ki, Naxçıvanı necə olub tanıyıb, bu qədim yurd yeri haqqında təəssüratları necədir? Müsahibim hər şeyə aydınlıq gətirir. Azərbaycan dilində sərbəst danışan bu qızın ixtisası da “Azərbaycan dili və ədəbiyyat müəllimliyi”dir. Üçüncü kursda təhsil alır və Naxçıvanı xalası qızı vasitəsilə tanıyıb. Li Jin Yonqun xalası qızı da Naxçıvanda oxuyur, buraya gəlməyi ona o tövsiyə edib. Bakalavr təhsil pilləsini bitirdikdən sonra magistratura təhsilini də burada almağı düşünən cənubi koreyalı tələbə Naxçıvanın hər yerini gəzib və Batabatdan xüsusi xoşu gəlib. O, Naxçıvanda qədim təhsil ənənələrinin onda xoş təəssürat yaratdığını, muxtar respublikamızın insanlarının qonaqpərvərliyindən məmnun olduğunu bildirdi.

Həkim olmağı qarşısına məqsəd qoyan Nigeriya vətəndaşı Samson Joe Odigie məqsədini reallaşdırmaq üçün internetdən təhsil müəssisəsi axtarışına çıxır və Azərbaycan Tibb Universitetində təhsil almağı qərara alır. Azərbaycanda təhsil alan dostu Con Naxçıvan Dövlət Universitetində verilən təhsilin keyfiyyətindən və göstərilən qayğının yüksək olmasından bəhs edir. Bundan sonra Samson qərarını qətiləşdirir və Naxçıvan Dövlət Universitetini seçir.

Muxtar respublikamızın, demək olar ki, hər bölgəsini gəzmiş Samson Azərbaycan dilini yaxşı mənimsəyib, Azərbaycan xalq mahnılarını xoşlayır, tədbirlərdə bu mahnıları ifa etməyə çalışır.

Tobraiz Hussain isə Pakistan vətəndaşıdır. O, Naxçıvan Dövlət Universitetində “iqtisadiyyat” ixtisası üzrə hazırlıq kursu keçir. Ölkəmizin müstəqilliyini tanıyan ikinci dövlət, düşmənlərimizə qarşı daim yanımızda olan dost ölkə Pakistan vətəndaşı Tobraiz Azərbaycanı, xüsusilə qədim Naxçıvanı çox sevdiyini deyir.

Muxtar respublikamızda həyata keçirilən yaşıllaşdırma tədbirlərindən məmnunluqla danışan Tobraiz iməciliklərdə iştirak etməyi faydalı və vacib iş sayır. Onu burada ən çox heyrətləndirən “Qurani-Kərim”də adıçəkilən Əshabi-Kəhf ziyarətgahı olub.

Sonda onu qeyd etmək istəyirəm ki, Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən gələn tələbələr muxtar respublikamızın inkişafını maraqla izləyirlər və əlbəttə ki, bu inkişafdan onlara da xeyli pay düşür. Bu isə o deməkdir ki, sürətlə inkişaf edən Naxçıvan diyarı öz mədəniyyəti ilə yanaşı, yetişdirdiyi gənc kadrlarla da dünyaya töhfələrini verməkdədir.

✍ Arzu ABDULLAYEV

## Çinar ömürlü yazıların müəllifi

*Muxtar respublika mətbuatının tanınmış nümayəndəsi, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Cəfər Əliyevi xatırlayanda onun güləriz, nurani çöhrəsi, qaynar, işıqlı baxışları gözlərimiz önündə canlanır, duzlu, məzəli söhbətləri, gənc jurnalistlərə tövsiyələri yada düşür.*



Yadımdadır, ilk dəfə onunla redaksiyanın dəhlizində qarşılaşanda mənə demişdi ki, qələmdən möhkəm yapış, onun qədir-qiymətini bil. Çünki əlində tutduğun qələmin həm kəskin qılıncın, həm də səni mühafizə edən qalxanın olacaq. Heç vaxt həqiqətdən uzaqlaşma, həmişə oxucularını düşün. Nə qədər ki əlindəki qələm həqiqəti yazır, onda oxucuların da olacaq, şanın-şöhrətin də. Çalış, həmişə qurucu olasan, sözü harda, necə işlətməyi bacarasan. Çünki bu dünyada sözün sirrini yaxşı bilənlər, yuxunu deyil, sözü yaxşı yerə yozanlar əbədilik qazanır.

Onun haqda keçmiş zamanda danışmaq çox çətindir. Ancaq deməliyəm ki, uşaqla uşaq, böyüklə böyük idi Cəfər müəllim. Heç kimin qəlbinə dəyməz, heç kimi incitməz, insanlara qarşı son dərəcə nəzakətli, həmkarlarına qarşı qayğıkeş, səxavətli, diqqətcil, təvazökar bir insan idi.

“Azərbaycan”, “Xalq qəzeti”, “Respublika” “Şərq qapısı”, “Şərurun səsi” və digər qəzetlərdə işıq üzü görən məzmunlu yazılarının elə ilk sətirlərini oxuyanda da imzaya baxmadan redaksiyada hər kəs bu yazının Cəfər müəllimin qələminin məhsulu olduğunu bilirdi. Onun öz dəst-xətti, öz üslubu vardı. Yazılarının dili çox yumşaq, qəlboxşayan idi, elə sadə, elə başa düşülən tərzdə yazırdı ki, oxucuda onun səmimiyyətinə şübhə yeri qalmırdı. O həm də dövlətə, dövlətçiliyə sadiq, zəhmətsevər, gecə-gündüzünü çalışdığı “Şərurun səsi”, “Şərq qapısı” qəzetlərinə həsr edən insan idi. Səmimi və nəzakətli bir insan olduğunu ona deyəndə tərifdən xoşlanmadığını bildirir, tapşırılan işi məsuliyyətlə və tez bir zamanda yerinə yetirməsinin, məhsuldarlığının səbəbini soruşanda isə deyirdi ki, səmimiyyət və nəzakət hər bir insanın bəzəyidir, verilən tapşırığı tez və keyfiyyətlə yerinə yetirməkdən daha vacib bir şey ola bilməz.

Əməkdaşlarımız “Şərq qapısı” qəzeti redaksiyasından Şərur rayonuna ezam olunanda bilirdilər ki, onları Cəfər müəllim qarşılayacaq və lazım olan köməyini əsirgəməyəcək. Özü ezam olunanlarla birlikdə yazı hazırlanacaq sahəyə yollanacaq, oradakı adamlarla söhbətləşəcək, lazımi köməklik göstərilməsini xahiş edəcək. Dünyada, eləcə də ölkəmizdə gedən proseslərdən düzgün və faydalı nəticə çıxarmağımıza hər zaman kömək edən, Naxçıvanı çox sevən, ona ürəkdən bağlı olan bir insan idi. Yaradıcılığı, bütövlükdə, ömür yolu barədə geniş söhbət açılmalı və öyrənilməli bir ziyalı, qələminə, jurnalistikaya, qəzet işinə bütün varlığı ilə bağlanan bir Vətən övladıydı. Şüarı ata-anaya ehtiram, övladlara məhəbbət və şəfqət, eləobaya bağlılıq, Vətənə, dövlətə sədaqət, qələmə hörmət idi.

… Bəzən insanları xarici görünüşünə görə çinara bənzədirlər. Mən və digər həmkarlarım da onun haqda söhbət açanda hər zaman “Çinar kimi adamdır” demişik. Ancaq bu ifadəni onun görünüşünə deyil, xarakterinə, təbiətinə aid etmişik. Çünki Cəfər müəllim insanlardan heç bir zaman kölgəsini əsirgəməyib, əksinə, dara düşənlərin hər zaman harayına yetib, onlara qol-budaq açıb, həlim xasiyyəti, əzəmətli duruşu ilə hər kəsə nümunə olub.

Aprelin 28-də – ömrünün 67-ci baharında dünyasını dəyişən Cəfər Əliyevin unudulmaz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq, onun çinar ömürlü yazıları biz jurnalistlər üçün hər zaman örnək olacaqdır.

✍ Səbuhi HÜSEYNOV

**İtmişdir**

Kəngərli rayonunun Qarabağlar kənd sakini Məhərrəmov Zəfər Məhərrəm oğlunun adına verilmiş JN-361[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 343